

# 20 Yanvar hadisəsinə hüquqi-siyasi qiyməti ilk dəfə Heydər Əliyev verib

**Heydər Əliyevin 21 yanvar 1990-cı il tarixdə Azərbaycanın Moskva şəhərindəki daimi nümayəndəliyinə gələrək, qanlı 20 Yanvar hadisəsi ilə əlaqədar xüsusi bəyanatla çıxış etməsi bu faciə haqqında obyektiv reallığın dünya ictimaiyyətinə çatdırılması istiqamətində atılmış ən ciddi addım idi.**

Heydər Əliyevin Moskvadan yayılan bəyanatı Azərbaycanın zor gücünə salındığı informasiya blokadasının yarılması, dağıdılması baxımından həmin dövr üçün misilsiz əhəmiyyətə malik hadisədir. Moskva Bəyanatı Azərbaycanda xalq hərəkatının, ümumiyyətlə, azadlıq və demokratiya uğrunda aparılan mübarizədən konkret olaraq və açıq şəkildə Azərbaycanda dövlət müstəqilliyi yolunda mübarizə müstəvisinə keçidin əsasını qoydu.

Heydər Əliyev Moskva Bəyanatı ilə, həmişə olduğu kimi, ən çətin məqamlarda da doğma Azərbaycan xalqı ilə bir yerdə olduğunu, xalqımızın azadlıq mücadiləsinə haqq qazandırdığını və dəstək verdiyini açıq şəkildə nümayiş etdirib. SSRİ rəhbərliyinin, şəxsən Mixail Qorbaçovun birbaşa tapşırığı ilə Bakıda həyata keçirilmiş 20 Yanvar hadisəsi ilk dəfə olaraq Heydər Əliyev kimi böyük dövlət xadimi səviyyəsində hüquqi-siyasi qiymətini alıb.

Bakı faciəsinin hüquqa, demokratiyaya və humanizm prinsiplərinə zidd olduğunu bəyan etməklə Heydər Əliyev Mixail Qorbaçovun və onun komandasının digər müttəfiq respublikalarda törətdiyi qanlı terror hadisələrinə də hüquqi-siyasi baxımdan qiymət verib.

Heydər Əliyev tərəfindən səsləndirilmiş bu bəyanat SSRİ-nin çökməsinin ilk anonsu idi. Moskva Bəyanatında Azərbaycan Sovet Respublikasının rəhbərliyinin 20 Yanvar hadisələrində tutduğu yanlış mövqeyinin də mahiyyəti açıqlanmış və haqlı olaraq bu qanlı faciənin baş verməsi məhz respublika rəhbərliyinin səriştəsizliyinin nəticəsi hesab edilmişdi.

Moskva Bəyanatındakı ittihamlar obyektiv siyasi-tarixi reallıqların ifadəsidir. 20 Yanvar ərəfəsindəki çətin və mürəkkəb şəraitdə isə nəinki “düzgün və operativ” məlumatlar vermək, hətta bütün imkanlardan istifadə edib faciənin qarşısını almaq lazım idi. Təəssüf ki, bu bacarıqların heç biri ozamankı rəhbərlikdə yox idi.

Moskva Bəyanatında haqlı olaraq 20 Yanvar faciəsini törədənlərin cəzalandırılması tələbləri də qəti şəkildə irəli sürülmüşdü. Heydər Əliyev Moskva Bəyanatında Bakı şəhərində hadisələri hərbi yolla “tənzimləmək” üçün qərar qəbul edən şəxslərin, həmin məsuliyyətsiz qərarları və tapşırıqları həyata keçirənlərin, həm ölkə, həm də respublika miqyasında olanların hamısının ittiham edilməsini cəsarətlə, çəkinmədən diqqətə çatdırmışdı.

*Bax: səh. 3*

Azərbaycan.- 2022.- 20 yanvar.- S.1.